İPƏK YOLU, No.4, 2023, səh.78-87
DOI: 10.30546/1810-911X.2023.4.78

# MƏŞĞULLUĞUN YAXŞILAŞDIRILMASINA REGİONAL ASPEKTDƏN YANAŞMA

**İntizar Qurbanova**

İqtisadiyyat İnstitutu, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Bakı, Azərbaycan
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: q.intizar@mail.ru

**Xülasə**. Məqalədə məşğulluq səviyyəsinin yüksəldilməsi məsələsinə regional aspektdən yanaşılmasının əhəmiyyəti araşdırılır. Bunun üçün məşğul əhalinin təhsil səviyyələri, yeni açılmış iş yerlərinin dinamikası, onların regionlar üzrə və iqtisadi fəaliyyət növlərinə görə bölgüsü və s. məsələlərə baxılmış, statistik göstəricilər təhlil olunmuşdur. Məqalədə məşğulluq problemlərinin regional səviyyədə həllinə nail olmaq üçün yerlərdə səmərəli işbirliyinin qurulması məsələləri öyrənilir.

**Açar sözlər**: Məşğulluq, əmək bazarı, təhsil səviyyələri, regionlar, iqtisadi fəaliyyət sahələri, yeni açılmış iş yerləri.

## A REGIONAL APPROACH TO IMPROVING EMPLOYMENT

**Intizar Gurbanova**
*Institute of Economics, Ministry of Science and Education Baku, Azerbaijan*
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract**. The article investigates the importance of approaching the issue of increasing the employment level from a regional perspective. For this, the educational levels of the employed population, the dynamics of newly opened workplaces, their distribution by regions and types of economic activity, etc. issues were considered, statistical indicators were analyzed. The article studies importanse of the establishment of the effective local cooperation in order to solve employment problems at the regional level.
**Keywords**: Employment, labor market, level of education, regions, areas of economic activity, newly opened jobs.

## РЕГИОНАЛЬНЫЙ ПОДХОД К ПОВЫШЕНИЮ ЗАНЯТОСТИ

**Интизар Гурбанова**
*Институт Экономики, Министерство Науки и Образования Азербайджанской Республики, Баку, Азербайджан*
*Университет Азербайджан, Баку, Азербайджан*

**Резюме.** В статье исследуется важность подхода к вопросу повышения уровня занятости с региональной точки зрения. Для этого учитывался образовательный уровень занятого населения, динамика вновь открытых рабочих мест, их распределение по регионам и видам экономической деятельности и т.д. вопросы, анализировались статистические показатели. В статье рассматривается важность налаживания эффективного местного сотрудничества для решения проблем занятости на региональном уровне.
**Ключевые слова:** Занятость, рынок труда, уровень образования, регионы, сферы экономической деятельности, вновь открываемые рабочие места.

## 1. Giriş

Əhalinin, xüsusilə də gənclərin məşğulluq problemləri müasir dövrümüzün ən aktual və vacib məsələlərindən biri olaraq qalmaqdadır. Baxmayaraq ki, ölkə rəhbərliyi bu məsələləri daima diqqət mərkəzində saxlayır və gənclərin məşğulluğunun artırılması ilə bağlı silsilə Dövlət Proqramları icra olunur, yenə də gənclər arasında işsizlik faizi yüksəkdir. Başlıca

çatışmazlıq isə peşə və ixtisas təhsili müəssisələri ilə əmək bazarı arasında əlaqənin hələ də zəif olması ilə bağlıdır. Bu barədə çox danışılsa da işəgötürənlərlə təhsil müəssisələri arasında əməkdaşlıq hələlik istənilən səviyyədə qurulmamışdır. Hazırlanan kadrların sayı və peşə strukturu ilə əmək bazarındakı tələbatlar çox vaxt üst-üstə düşmür. Müəyyən ixtisaslar üzrə kadr artıqlığı olduğu halda, digər lazımlı peşələr üzrə kadr çatışmır. Təbii ki, bazar iqtisadiyyatı şəraitində, xüsusilə də xırda müəssisələrin üstünlük təşkil etdiyi iqtisadiyyatda bunun mükəmməl şəkildə təşkil edilməsi mümkün deyil. Lakin təhsil müəssisələri ilə işəgötürənlərin səmərəli işbirliyinin tədricən formalaşdırılması lazımdır. Bu məsələlərə regional səviyyədə yanaşılmalıdır. Yəni hər bir regionun müəssisələri, qabaqda gedənləri öz yaşadıqları regionda məşğulluğun artırılmasına, xüsusilə də gənclərin lazımlı peşələrə yiyələnib öz regionlarında iş tapmalarına yardım göstərməlidirlər. Əbəs yerə deyil ki, Prezident İlham Əliyev cənabları regionların inkişafına dair öz çıxışlarında bildirmişdi: "Azərbaycanın hər bir bölgəsi inkişaf etməlidir... Regionları hərtərəfli inkişaf etdirmək üçün güclü infrastruktur olmalıdır. Azərbaycanın gücü, bölgələrin gücündədir" [1].

## 2. Məşğulluq vəziyyəti barədə ümumi göstəricilər

İlk öncə respublikamızdakı məşğulluq vəziyyətinin ümumi göstəriciləri ilə tanış olaq. Cədvəl 1-dən göründüyü kimi həm ölkə əhalisinin, həm də iqtisadi fəal əhalinin sayında stabil artım vardır. Məşğul əhalinin sayı da 2019-cu ilədək stabil olaraq artmışdır, 2020-ci ildə isə pandemiya, sərt karantin vəziyyəti ilə bağlı azalmış, əksinə işsizlərin sayı isə artmışdır. Pandemiya dövrünə qədər respublikamızda işsizlik səviyyəsi iqtisadi fəal əhaliyə nəzərən rəsmi statistikada 5% təşkil edirdisə, 2020-ci ildə məşğul əhalinin sayı 4876,6 min nəfər (onların da 25,1 faizi gənclərdir), işsizlərin sayı 375,9 min nəfər (o cümlədən 41 faizi gənclər) olmaqla işsizlik səviyyəsi 7,2 faizə yüksəlmişdi, 2021-ci ildə isə müvafiq olaraq 4988,2 min nəfər və 315,7 min nəfər, işsizlik səviyyəsi isə 6,3 faiz təşkil etmişdi.

**Cədvəl 1.** Əmək bazarının əsas sosial-iqtisadi göstəriciləri (min nəfər)

| | 2010 | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| Əhalinin orta illik sayı | 9054,3 | 9649,3 | 9854,0 | 9939,8 | 10024,3 | 10093,1 | 10137,8 |
| İqtisadi fəal əhalinin sayı | 4587,4 | 4915,3 | 5073,8 | 5133,1 | 5190,1 | 5252,5 | 5303,9 |
| Məşğul əhalinin sayı | 4329,1 | 4671,6 | 4822,1 | 4879,3 | 4938,5 | 4876,6 | 4988,2 |
| İşsiz əhalinin sayı | 258,3 | 243,7 | 251,7 | 253,8 | 251,6 | 375,9 | 315,7 |
| Muzdlu işçilərin sayı | 1382,9 | 1502,5 | 1525,0 | 1551,7 | 1646,6 | 1698,7 | 1709,1 |

**Mənbə:** [2].

Statistik seçmə müayinələrinə əsasən, 15 və yuxarı yaşda olan əhaliyə nisbətdə məşğulluq səviyyəsi 2020-ci ildə 62,1% (o cümlədən şəhər yerlərində 57,7%, kənd yerlərində 67,2%), işsizlik səviyyəsi 7,2% (o cümlədən şəhər yerlərində 8,6%, kənd yerlərində 5,7%)

olmuş, 2021-ci ildə isə məşğulluq səviyyəsi bir faiz yüksələrək 63,1% (o cümlədən şəhər yerlərində 58,9%, kənd yerlərində 68,0%), işsizlik səviyyəsi isə azalaraq 6,0% (o cümlədən şəhər yerlərində 7,2%, kənd yerlərində 4,6%) olmuşdur.

2021-ci ildə əməkqabiliyyətli yaşda iqtisadi fəal əhalinin sayı 5214,8 min nəfər, onlardan məşğul əhali 4899,1 min nəfər, məşğulluq səviyyəsi 70,1% (o cümlədən şəhər yerlərində 66,2%, kənd yerlərində 74,7%), işsizlik səviyyəsi 6,1% (o cümlədən şəhər yerlərində 7,4%, kənd yerlərində 4,7%) təşkil etmişdir [2, s.129-131].

Yuxarıdakı statistik verilənlər göstərir ki, kənd yerlərində məşğulluq səviyyəsi daha yüksəkdir. Bu da kənd yerlərində yaşayanların əsasən pay torpaqlarının sahibi kimi qanunla məşğul sayılması ilə əlaqədar ola bilər. Əksəriyyətin adında pay torpaqları var, lakin hər kəs ondan faydalı istifadə etməyi və gəlir götürməyi bacarırmı? Məsələ bundadır. Məşğul sayılmaları üçün onların stabil gəliri olmalıdır. Lakin torpaqlardan səmərəli istifadə edərək qazanc götürmək üçün həm bacarıqlı işçi qüvvəsi, həm sahibkarlıq qabiliyyəti, həm də texnika lazımdır, buna da hər kəs malik deyil. Torpaqlarını icarəyə verməklə də öz istehlak tələbatlarını ödəyəcək qədər vəsait əldə edə bilmirlər. Peşə və ixtisası olmayanlar üçün gəlir əldə etmək daha çətindir, onlar yalnız fermer təsərrüfatlarında yardımçı işlərlə məşğul ola bilərlər. Birgə təsərrüfatların yaradılması və sayının artırılması regionlarda məşğulluğu yüksəldə, eləcə də kənd təsərrüfatının və aqrar sahənin inkişafına kömək edə bilər.

## 3. Regionlarda məşğulluğun artırılması tədbirləri

Qeyd etməliyik ki, regionlarda, xüsusilə də kənd yerlərində gənclər üçün iş tapmaq daha çətindir. Bu səbəbdən onların əksəriyyəti iş tapmaq üçün iri şəhərlərə əsasən Bakıya və Bakıətrafı ərazilərə üz tuturlar. Beləliklə də şəhərlərdə sıxlıq yaranır, regionlar isə boş qalır, bu isə insanların bir tərəfdən maddi rifahını yaxşılaşdırırsa, digər tərəfdən də onlar üçün çətinliklər yaradır. Evindən, ailəsindən uzaqda yaşamaq məcburiyyəti, qazancının bir hissəsini ev kirayəsinə sərf etmək, izafi nəqliyyat xərcləri, eləcə də sosial-psixoloji vəziyyətlə, sağlamlıqla, rahat yaşayışla bağlı digər çətinliklər əmələ gəlir. Öz yaşayış yerinə yaxın ərazidə münasib işdə işləmək şəraiti olsa hər kəs üçün daha yaxşı olar. Belə problemlərin həlli istiqamətində dövlət tərəfindən müvafiq tədbirlər görülür. Məsələn, 2004-cü ildən başlayaraq regionların sosial-iqtisadi inkişafını təmin etmək məqsədilə 3 Dövlət Proqramı yerinə yetirilmiş, 2019-2023-cü illəri əhatə edən 4-cü proqram da artıq yekunlaşmaqdadır. Qeyd edilən proqramların nəticəsi kimi, 2 milyondan artıq yeni iş yerləri yaradılmışdır. Aşağıdakı diaqramdan görünür ki, 2004-2018-ci illərdə açılmış iş yerlərinin 72 faizi regionların payına düşür.




**Qrafik 1.** Dövlət Proqramları nəticəsində yaradılmış iş yerlərinin sayı
**Mənbə:** [3].

Belə məsələdə yalnız dövlət yox, həm də yerli işəgötürənlər, yerli icra orqanları, bələdiyyələr, təhsil müəssisələri birgə fəaliyyət göstərməlidir. Hər kəs öz regionunun inkişafı üçün çalışmalı, üzərinə düşən məsuliyyəti dərk etməli, öz vəzifələrini layiqincə yerinə yetirməlidir. Demək olar ki, məhz bu yanaşmaların, məsuliyyətini dərk etmənin müxtəlifliyinə görə regionlardakı işsizlik səviyyəsi də bir-birindən fərqlənir. Aşağıdakı cədvəldən gördüyümüz kimi, ən yaxşı vəziyyət Naxçıvan Muxtar Respublikasına aiddir. Ümumilikdə respublika üzrə işsizlik səviyyəsinin 2021-ci ildə 6 faiz olmasına baxmayaraq Naxçıvan MR-da cəmi 0,1 faiz təşkil edir. Baxmayaraq ki, son illərdə açılmış yeni müəssisələrin və iş yerlərinin böyük hissəsi Bakı şəhərinin payına düşür, ən böyük işsizlik səviyyəsi də elə buradadır (7,4 faiz). Təbii ki, bunu da buraya regionlardan gələn böyük işçi qüvvəsi ilə əlaqələndirmək olar.

**Cədvəl 2.** İqtisadi rayonlar üzrə işsizlik səviyyəsi (faizlə)

| | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|
| **Azərbaycan Respublikasıüzrə, cəmi:** | **5,0** | **5,0** | **4,9** | **4,8** | **7,2** | **6,0** |
| Bakı şəhəri | 6,0 | 6,1 | 6,0 | 5,8 | 8,6 | 7,4 |
| Naxçıvan Muxtar Respublikası | - | - | - | 0,0 | 0,1 | 0,1 |
| Abşeron-Xızı iqtisadi rayonu | 5,2 | 5,3 | 5,3 | 5,2 | 7,8 | 6,7 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 4,6 | 4,6 | 4,8 | 4,7 | 7,0 | 5,6 |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 5,3 | 5,4 | 5,4 | 5,5 | 8,0 | 6,7 |
| Qarabağ iqtisadi rayonu | 5,0 | 4,8 | 4,9 | 4,7 | 7,1 | 5,8 |
| Qazax-Tovuz iqtisadi rayonu | 4,6 | 4,4 | 4,4 | 4,3 | 6,4 | 5,1 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 4,4 | 4,4 | 4,3 | 4,3 | 6,4 | 5,2 |
| Lənkəran-Astara iqtisadi rayonu | 4,8 | 4,8 | 4,7 | 4,6 | 6,8 | 5,6 |
| Mərkəzi Aran iqtisadi rayonu | 5,7 | 5,6 | 5,8 | 5,6 | 7,9 | 6,4 |
| Mil-Muğan iqtisadi rayonu | 4,5 | 4,4 | 4,2 | 4,1 | 6,1 | 4,8 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 4,4 | 4,4 | 4,3 | 4,2 | 6,2 | 5,0 |
| Şərqi Zəngəzur iqtisadi rayonu | 6,0 | 6,1 | 6,3 | 6,2 | 9,1 | 7,8 |
| Şirvan-Salyan iqtisadi rayonu | 4,9 | 4,9 | 5,0 | 4,9 | 7,2 | 6,0 |

**Mənbə:** [2]

Son iki ilin statistikasında bölgələr üzrə ən yüksək işsizlik faizi Şərqi Zəngəzur iqtisadi rayonuna aid olmuşdu, lakin AR-nın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrası nəticəsində burada vəziyyətin tez bir zamanda ən optimal dərəcədə yaxşılaşacağına ümid edirik [4]. Qeyd edək ki, torpaqlarımız işğal olunan zaman həmin ərazilərimizdə 300 mindən artıq iş yerləri də itirilmişdi. Burada yaşayışın və infrastrukturun bərpası ilə məşğulluq səviyyəsinin də həm bu bölgədə, həm də regionlarda əhəmiyyətli dərəcədə yüksələcəyi gözləniləndir.

### 4. Açılmış yeni iş yerlərinin dinamikası

Məşğulluğun artırılması birinci növbədə yeni iş yerlərinin yaradılması ilə bağlıdır. Ölkəmizdə əhalinin sayı ilbəil artır, əgər əhali artımına müvafiq şəkildə iş yerlərinin sayı artmazsa işsizlik problemi çox güman ki, öz aktuallığını saxlayacaq. İşçi qüvvəsinə tələb artmalıdır ki, mövcud əmək potensialından tələbata uyğun peşə-ixtisas təhsilli kadrlar hazırlansın. Əmək bazarında geniş araşdırmalar aparmış prof. G. Əzizovanın qeyd etdiyi kimi, *“işçi qüvvəsinə tələb və təklifin uzlaşdırılmasına nail olmaq üçün yeni iş yerlərinin yaradılması prosesini stimullaşdırmaq, mövcud olanları isə qorumaq və müasirləşdirmək vacibdir”* [7, s.99].

Bundan əlavə, qeyd etməliyik ki, hazırda iş yerlərinin daha çox regionlarda açılması istiqamətində işlər aparılmalıdır. Lakin statistik verilənlərin təhlili göstərir ki, yeni yaradılmış müəssisələrin böyük hissəsi (demək olar ki, 80%-dən çoxu) Bakı şəhərinin payına düşür. Digər alimimiz prof. T.H.Hüseynov çox doğru qeyd edir ki, əgər əvvəllər söhbət kütləvi işsizliyin qarşısının alınmasından gedirdisə, indi ləyaqətli iş yerlərindən əsasən də onların regionlarda yaradılmasından gedir [5, s.114].

Aşağıdakı cədvəldə son illərdə açılmış yeni iş yerlərinin regionlar üzrə sayı barədə statistik göstəricilər verilmişdir. Həmin dövr ərzində respublika üzrə ümumilikdə 1294068 iş yeri açılmışdır.

2020-ci ildə yeni açılmış iş yerlərinin 69,3 faizi; 2021-ci ildə 77,1 faizi; 2022-ci ildə 80,2 faizi Bakı şəhərinin payına düşür. Bölgələr arasında isə 2019-cu ilə qədər Aran zonasında daha çox iş yeri açılmışdır. 2020-ci və 2021-ci ilin göstəricilərinə görə isə Lənkəran Aran bölgəsini üstələmişdir.

2022-ci ildə yeni açılmış iş yerlərinin 80,2 faizi Bakı şəhərinin; 3,3 faizi Abşeron-Xızı; 2,6 faizi Quba-Xaçmaz; 2,5 faizi Şəki-Zaqatala; 2,0 faizi Şirvan-Salyan; 1,7 faizi Gəncə-Daşkəsən; 1,3 faizi Qazax-Tovuz; 1,3 faizi Lənkəran-Astara; 1,3 faizi Qarabağ; 1,2 faizi Mərkəzi Aran; 0,9 faizi Mil-Muğan; 0,8 faizi Dağlıq Şirvan; 0,3 faizi isə Şərqi Zəngəzur iqtisadi rayonlarının; 0,6 faizi Naxçıvan Muxtar Respublikasının payına düşmüşdür.

**Cədvəl 3.** Azərbaycanda son illərdə yeni açılmış iş yerlərinin dinamikası(2015-2022-ci illər)

| **İllər** | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|
| **Respublika üzrə açılmış yeni iş yerlərinin cəmi** | 115869 | 196539 | 281446 | 238947 | 192017 | 128979 | 68991 | 71280 |
| Bakı şəhəri | 39365 | 49010 | 68714 | 62215 | 106557 | 89404 | 53170 | 57136 |
| Abşeron | 11180 | 11143 | 15222 | 11749 | 6945 | 3139 | 3220 | 2388 |
| Gəncə-Qazax | 13510 | 26134 | 28857 | 18296 | 13171 | 4318 | 3634 | 2069 |
| Şəki-Zaqatala | 5202 | 10576 | 9508 | 7160 | 6411 | 1989 | 1368 | 1816 |
| Lənkəran | 7723 | 12980 | 28514 | 21232 | 11395 | 8478 | 1563 | 947 |
| Quba-Xaçmaz | 4693 | 9542 | 8373 | 6441 | 3963 | 1775 | 1556 | 1877 |
| Aran | 22122 | 57104 | 95980 | 92 911 | 31265 | 4883 | 1641 | 1530 |
| Yuxarı Qarabağ | 3711 | 6704 | 15012 | 10515 | 4291 | 4536 | 681 | 905 |
| Kəlbəcər-Laçın | 775 | 1038 | 777 | 538 | 124 | - | 199 | 223 |
| Dağlıq Şirvan | 4680 | 9298 | 8052 | 5063 | 4675 | 1553 | 577 | 547 |
| Naxçıvan | 2908 | 3010 | 2437 | 2827 | 3220 | 955 | 427 | 407 |

**Mənbə:** [2].

*Qeyd: İş yerlərinin sayı hesablanarkən iqtisadi rayonların bölgüsündəki 2021-ci ildən sonrakı dəyişikliklər nəzərə alınmışdır.*

2023-cü ilin I rübündə ümumilikdə 17886 yeni iş yeri açılmışdır, bunların da 14657-si (81,9%-i) Bakının payına düşür. Göründüyü kimi bu tendensiya hələ də davam edir. Yeni iş yerlərinin regionlarda yaradılmasını təşviq edən tədbirlər görülməlidir. Belə ki, Bakı şəhərinin ərazisi ölkə ərazisinin 2,5 faizini təşkil etdiyi halda əhalinin 22,7 faizi (məşğul əhalinin isə 24 faizi) burada məskunlaşmış, əhalinin sıxlığı 1 kv.km.-də 1075 nəfərə çatmışdır. Ölkə üzrə bu rəqəm 117 nəfərdir, bəzi bölgələrdə hətta 42 nəfər təşkil edir.

Müsbət hal isə odur ki, artıq işğaldan azad olunmuş torpaqlarımıza qayıdışın başlanılması şəhərdəki sıxlığın yaxın zamanlarda azalacağından, regionlarımızın daha da inkişaf edəcəyindən, iş yerlərinin sayının, beləliklə də məşğulluq səviyyəsinin artacağından xəbər verir (Təbii ki, bu prosesin sürətlənməsi iqtisadiyyatdan daha çox, hərbi məsələdir, yəni torpaqlarımızın minalardan təmizlənməsindən asılıdır).

Beynəlxalq İqtisadi Forumun proqnozlarına görə, yaxın 5 ildə dünya əmək bazarında iş yerlərinin sayında 14 milyon azalma olacağı gözlənilir, yəni 69 mln. yeni iş yerləri yaradılacaq, 83 mln. iş yeri isə ləğv ediləcək [8, s.28]. Əminliklə deyə bilərik ki, bu bədbin proqnozlar Azərbaycana aid olmayacaq, ona görə ki, işğaldan azad olunmuş bölgələrimizin perspektivində turizmin, kənd təsərrüfatının, yeyinti sənayesinin, dağ mədən sənayesinin və s. potensialından geniş istifadə imkanları çoxlu sayda iş yerlərinin açılmasına təkan verə biləcək.

## 5. Məşğul əhalinin təhsil və peşə-ixtisas strukturu

İqtisadiyyatı düşündürən əsas məsələlərdən biri də insanların peşə və ixtisasa sahib olması və peşə və ixtisasına uyğun işlə təmin olunmasıdır. Başqa sözlə, səmərəli məşğulluğun təmin olunması üçün əmək bazarındakı ehtiyaclara uyğun işçi qüvvəsinin olması vacib məsələdir. Bunun üçün də peşə və ixtisaslar üzrə kadrlar hazırlanarkən əmək bazarında hansı

peşə və ixtisaslara nə qədər kadr lazım olduğunu araşdırmaq və proqnozlaşdırmaq lazım gəlir. İlk növbədə baxaq görək məşğul əhalinin təhsil səviyyələri hansı vəziyyətdədir. Aşağıdakı cədvəl göstəriciləri bu barədə müəyyən təsəvvür yaradır. Cədvəldən göründüyü kimi məşğul əhalinin 65 faizdən çoxu heç bir peşə-ixtisas təhsili almadan əmək fəaliyyətinə başlamışdır. Belə ki, onların yalnız 16,9 faizi ali təhsil; 11,1 faizi orta ixtisas təhsili və 5,6 faizi peşə təhsili almış şəxslərdir.

**Cədvəl 4.** Məşğul əhalinin təhsil səviyyələri üzrə bölgüsü (faizlə)

| Təhsil səviyyəsi | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| Cəmi | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| ali təhsil | 16,3 | 16,4 | 16,5 | 16,7 | 16,8 | 16,9 | 16,9 |
| orta ixtisas təhsili | 10,6 | 10,7 | 10,7 | 11,0 | 11,1 | 11,1 | 11,1 |
| peşə təhsili | 5,5 | 5,3 | 5,4 | 5,5 | 5,6 | 5,6 | 5,6 |
| tam orta təhsil | 60,4 | 60,4 | 60,0 | 60,1 | 59,7 | 59,7 | 59,7 |
| ümumi orta təhsil | 6,3 | 6,3 | 6,4 | 5,9 | 6,0 | 6,0 | 6,0 |
| ibtidai təhsil | 0,9 | 0,9 | 1,0 | 0,8 | 0,8 | 0,7 | 0,7 |

**Mənbə:** [2].

65 faizdən yuxarı təhsilsiz insanın əmək fəaliyyətinə başlaması o deməkdir ki, işəgötürənlərin tələbləri lazımınca ödənilməyəcək və sonradan onların bir çoxunun təhsilinə müəssisə tərəfindən xərc çəkilməlidir. Baxmayaraq ki, ali təhsil müəssisələrinə qəbul olunanların sayı ilbəil artır (hazırda 40 min nəfərdən yuxarı), bu artım hələlik yuxarıdakı göstəricilərə öz təsirini göstərməmişdir. Peşə təhsili müəssisələrində isə görülən tədbirlərə baxmayaraq kontingent artımına nail olunmamışdır.

Onu da qeyd edək ki, təhsilli kadrların sayı qədər onların peşə-ixtisas tərkibi də önəmlidir. Əmək bazarında tələb və təklifin uzlaşması həm kəmiyyət, həm də keyfiyyətlə bağlı məsələdir. Buna görə də əmək bazarında tarazlığın olması üçün iqtisadi fəaliyyət sahələrində baş verən dəyişikliklərin, ehtiyacların müntəzəm araşdırılması labüddür. Aşağıdakı cədvəldən istifadə edərək hansı sahələr üçün kadr ehtiyaclarının artması barədə mülahizələr yürütmək olar.

2021-ci ildə hüquqi şəxslər tərəfindən yaradılmış iş yerlərinin 21,7 faizi tikinti; 18,8 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri; 11,2 faizi emal sənayesi; 6,5 faizi peşə, elmi və texniki fəaliyyət; 5,8 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi; 5,6 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi; 4,9 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə; 4,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq; 3,5 faizi təhsil; 3,4 faizi nəqliyyat və anbar təsərrüfatı; 2,4 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar; 11,6 faizi isə digər iqtisadi fəaliyyət növləri üzrə açılmışdır [2, s.5-6].

**Cədvəl 5.** İqtisadi fəaliyyət sahələrinə görə açılmış iş yerlərinin dinamikası (faizlə)

| | Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | Mədənçıxarma sənayesi | Emal sənayesi | Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | Su təchizatı, tullantıların təmizlənməsi və emalı | Tikinti | Ticarət; nəqliyyat vasitələrinin təmiri | Nəqliyyat və anbar təsərrüfatı | Turistlərin yerləşdirilməsi və ictimai iaşə | İnformasiya və rabitə | Maliyyə və sığorta fəaliyyəti | Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | Peşə, elmi və texniki fəaliyyət | İnzibati və yardımçı xidmətlərin göstərilməsi | Dövlət idarəetməsi və müdafiə; sosial təminat | Təhsil | Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | Digər sahələrdə xidmətlərin göstərilməsi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2019 | 3,1 | 1,2 | 6,4 | 1,2 | 0,4 | 14,2 | 8,9 | 2,1 | 2,8 | 1,1 | 0,8 | 1,0 | 2,6 | 45,8 | 3,3 | 2,2 | 1,0 | 0,8 | 1,1 |
| 2020 | 5,2 | 0,7 | 7,1 | 0,1 | 0,3 | 22,2 | 12,8 | 2,1 | 1,7 | 1,5 | 1,3 | 1,0 | 3,6 | 29,0 | 1,4 | 2,9 | 5,0 | 0,6 | 1,5 |
| 2021 | 4,6 | 1,2 | 11,2 | 0,5 | 1,2 | 21,7 | 18,8 | 3,4 | 4,9 | 2,3 | 2,3 | 2,4 | 6,5 | 5,8 | 0,6 | 3,5 | 5,6 | 1,3 | 2,2 |
| 2022 | 3,0 | 0,9 | 10,7 | 0,5 | 0,8 | 23,7 | 16,6 | 4,4 | 8,0 | 2,4 | 2,3 | 1,4 | 7,2 | 4,7 | 0,7 | 4,1 | 5,0 | 1,4 | 2,2 |
| 2023 I rüb | 2,7 | 1,1 | 10,2 | 0,1 | 0,5 | 23,9 | 18,0 | 4,5 | 7,8 | 1,9 | 1,9 | 3,3 | 8,8 | 3,4 | 0,8 | 2,4 | 6,7 | 1,1 | 0,9 |

**Mənbə:** [2].

2022-ci ildə hüquqi şəxslər tərəfindən yaradılmış iş yerlərinin 23,7 faizi tikinti; 16,6 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri; 10,7 faizi emal sənayesi; 8,0 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə; 7,2 faizi peşə, elmi və texniki fəaliyyət; 5,0 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi; 4,7 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi; 4,4 faizi nəqliyyat və anbar təsərrüfatı; 4,1 faizi təhsil; 3,0 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq; 2,4 faizi informasiya və rabitə; 10,2 faizi isə digər iqtisadi fəaliyyət növləri üzrə açılmışdır [2, s.5-6].

2023-cü ilin I rübündə yeni yaradılmış iş yerlərinin 23,9 faizi tikinti; 18,0 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri; 10,2 faizi emal sənayesi; 8,8 faizi peşə, elmi və texniki fəaliyyət; 7,8 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə; 6,7 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi; 4,5 faizi nəqliyyat və anbar təsərrüfatı; 3,4 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi; 16,7 faizi isə digər iqtisadi fəaliyyət növləri üzrə açılmışdır [2, s.5-6].

Beləliklə, cədvəl 5-dəki məlumatların yekun təhlili göstərir ki, son illərdə açılmış iş yerlərinin böyük hissəsi tikinti sahəsinə (24 faizə yaxın); ticarət, nəqliyyat vasitələrinin təmiri (18 faiz); emal sənayesi (10 faizdən çox) sahələrinə; daha sonra peşə, elm və texniki fəaliyyət (8,8 faiz); turistlərin yerləşdirilməsi (8 faizə yaxın); əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi (5-6 faiz); nəqliyyat və anbar təsərrüfatı (4,5 faiz) sahələrinə aiddir. Bu isə həmin sahələr üçün kadrlara tələbatın artmasını göstərir. Bu tendensiyanın yaxın illərdə də davam edəcəyini gözləmək olar. Buna görə də bu sahələr üçün peşəkar kadr hazırlığını diqqətdə

saxlamaq lazımdır. Bunun üçün hər bölgənin tələbatları ayrıca öyrənilməli, yerli səviyyədə onların həllinə çalışılmalıdır.

Bundan başqa, dünyada gedən texnolji inkişaf ilə əlaqədar texniki sahədə bilik iqtisadiyyatının tələblərinə uyğun kadrların hazırlanmasına da ehtiyac artacaq. Məsələn, İKT sahəsində, elektronika, robototexnika, internet üzrə mütəxəssislər, big data mütəxəssisləri və s. tələbatlı peşələr olacaq.

Əmək bazarında tələb olunan peşə-ixtisas və işçilərdən gözlənilən bacarıqlar haqqında ətraflı tədqiqatlar tərəfimizdən yerinə yetirilmiş dissertasiya işində də öz geniş əksini tapmışdır [6, s.94-98].

**Nəticə.** Danılmaz faktdır ki, 2004-cü ildən başlayaraq ümumilikdə həm ölkəmizdə, həm də regionlarımızda məşğulluq səviyyəsinin yaxşılaşdırılması istiqamətində çox işlər görülmüş və görülməkdə davam edir. Lakin dövlət tərəfindən icra olunan proqramların uğurla davam etdirilməsi həm də vətəndaşların özlərindən asılıdır. Onlar özləri də iş axtarışında fəal olmalı, yaşadıqları əraziyə aid olan Məşğulluq Mərkəzləri ilə sıx əlaqə saxlamalı, dövlət tərəfindən yaradılmış şəraitdən, özünüməşğulluq tədbirlərindən və s. maksimum faydalanmağa çalışmalıdırlar. Ölkədə sahibkarlığın inkişafına dəstək üçün görülən tədbirlər, biznes, investisiya mühitinin yaxşılaşdırılması da regionlarda yeni müəssisələrin, fermer təsərrüfatlarının yaradılmasına, yeni iş yerlərinin açılmasına istiqamətlənmiş tədbirlərdir, hansı ki, vətəndaşlar bu imkanlardan səmərəli istifadə etməlidir.

Regionların inkişafı yerlərdəki iş birliyindən də çox asılıdır, yerli icra, bələdiyyə və məşğulluq orqanlarının, iş adamlarının, bütün növ yerli müəssisələrin, o cümlədən peşə-ixtisas təhsili müəssisələrinin qarşılıqlı əməkdaşlıqda fəaliyyət göstərməsi vacibdir. Regionlarda həm dövlət, həm özəl sektorun, həm də peşə-ixtisas təhsili müəssisələrinin qarşılıqlı əməkdaşlığını özündə ehtiva edən klaster işbirliyinin formalaşması labüddür. Region məktəblərində rayonların ixtisaslaşmasına müvafiq olan peşələr üzrə peşə təhsili siniflərinin yaradılması da müsbət nəticələr verə bilər. Beləcə yerli əmək potensialından səmərəli istifadəyə və məşğulluq problemlərinin yerli səviyyədə həllinə nail olmaq olar.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Prezidenti İ. Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı çıxışı. (11 yanvar 2019), Azərbaycan Respublikasının Prezidentinin rəsmi internet səhifəsi. Bakı. https://president.az/az/articles/view/31504
2. Azərbaycan Respublikasının statistik göstəriciləri. Statistik bülletenlər. (2015-2022-ci illər üzrə), Bakı, AR Dövlət Statistika Komitəsinin rəsmi saytı. https://www.stat.gov.az/source/labour/

3. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı: Bakı, 29 yanvar 2019-cu ildə təsdiq edilmişdir. https://e-qanun.az/framework/41320
4. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı: Bakı, 16 noyabr 2022-ci ildə təsdiq edilmişdir. https://e-qanun.az/framework/52757
5. Hüseynov T.H. (2015), Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika. Bakı: Elm, 466.
6. Qurbanova İ.M. (2022), Azərbaycanda peşə təhsili sisteminin inkişafı və məşğulluğa təsirinin artırılması. İqtisad üzrə fəlsəfə doktorluğu elmi dərəcəsi almaq üçün yerinə yetirilmiş dissertasiya. Bakı, 163. http://economics.com.az/images/fotos/dissertasiyalar/%C4%B0ntizar_disert.pdf
7. Азизова Г.А. (2005), Рынок труда Азербайджана, Баку: Элм, 303.
8. Future of jobs report. (2023), World Economik Forum. May 2023. https://www3.weforum.org/docs/WEF_Future_of_Jobs_2023.pdf